**AZƏRBAYCAN RESPUBLİKASI**

**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

# AZƏRBAYCANDA PÜSTƏ İSTEHSALI İLƏ BAĞLI

# A R A Y I Ş



**Bakı – 2021**

# Mündəricat


1. **Sahə, istehsal və məhsuldarlıq göstəriciləri ..................... 3**
2. **İdxal və ixrac göstəriciləri ..................... 6**
3. **Qlobal istehsal, idxal və ixrac göstəriciləri ..................... 7**

## 1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

- 2020-ci ilin məlumatına əsasən Azərbaycanda püstə bağlarının sahəsi 118.5 hektar olub. Püstə bağlarının sahəsi 2015-ci ilə nisbətən 25.0% azalmış, 2019-cu ilə nisbətən isə 0.2% artmışdır. Mövcud bağların 8.6 hektarı və ya 7.3%-i barverən yaşdadır *(Qrafik 1).*

**Qrafik 1. Azərbaycanda püstə bağlarının sahəsi, ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- Cəmi püstə bağlarının 85.5%-i intensiv, 15.5%-i isə ənənəvi bağlardır *(Qrafik 2).*

**Qrafik 2. Azərbaycanda püstə bağlarının əkin strukturu**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə cəmi püstə bağlarının 84.4%-i Naxçıvan Muxtar Respublikasının, 5.9%-i Xızı rayonunun, 5.6%-i Bakı şəhərinin və 2.1%-i Sabirabad rayonunun payına düşüb *(Cədvəl 1).*

**Cədvəl 1. 2020-ci ildə püstə bağlarının rayonlar üzrə bölgüsü**

| | **Cəmi əkmələr, ha** | **Ondan barverən yaşda, ha** | **İl ərzində yeni salınmış bağlar, ha** |
|---|---|---|---|
| **Ölkə** | **118.5** | **8.6** | **0.2** |
| Naxçıvan M.R. | 100.0 | - | - |
| Xızı | 7.0 | - | - |
| Bakı | 6.6 | 6.4 | 0.2 |
| Sabirabad | 2.5 | - | - |
| **Digər** | **2.4** | **2.2** | **0.0** |

***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə püstə istehsalı 2015-ci ilə nisbətən 1.8 dəfə artmış, 2019-cu ilə nisbətən isə 2.7% azalaraq 25.5 ton olub *(Qrafik 3).*

**Qrafik 3. Azərbaycanda püstə istehsalı, ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə cəmi püstə istehsalının 90.2%-i Bakı, 3.9%-i Zərdab və 2.0%-i Şabran rayonunun payına düşüb *(Qrafik 4).*

**Qrafik 4. Əsas istehsalçı rayonlarda məhsul yığımı, ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə püstənin məhsuldarlığı 2015-ci ilə nisbətən 6.5% artmış, 2019-cu ilə nisbətən isə 3.0% azalaraq 29.6 sent/ha olub *(Qrafik 5).*

**Qrafik 5. Azərbaycanda püstənin məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

Püstənin əsas istehsalçı rayonu olan Şabran rayonunda və Bakı şəhərində məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksək olub *(Qrafik 6).*

**Qrafik 6. Püstənin əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

## 2. İdxal və ixrac göstəriciləri

- 2020-ci ildə Azərbaycana qabıqlı püstə idxalı əvvəlki ilə nisbətən 15.5% azalmış, qabığı təmizlənmiş püstə idxalı isə 2.8 dəfə artmışdır. 2020-ci ildə cəmi püstə idxalının 92.6%-i qabıqlı püstənin, 7.4%-i qabığı təmizlənmiş püstənin payına düşüb *(Cədvəl 2).*

**Cədvəl 2. Püstənin idxal həcmi**

| İllər | Qabıqlı püstə | | Qabığı təmizlənmiş püstə | |
|---|---|---|---|---|
| | **miqdarı, ton** | **məbləği, min ABŞ dolları** | **miqdarı, ton** | **məbləği, min ABŞ dolları** |
| 2016 | 203.1 | 521.4 | 0.4 | 6.6 |
| 2017 | 255.0 | 878.5 | 2.2 | 50.0 |
| 2018 | 143.0 | 671.6 | 8.1 | 66.5 |
| 2019 | 101.3 | 712.5 | 2.5 | 34.8 |
| 2020 | 85.6 | 621.4 | 6.9 | 53.2 |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

- 2020-ci ildə Azərbaycana qabıqlı püstə idxalının 79.6%-i İranın, 20.4%-i isə Türkiyənin payına düşüb *(Cədvəl 3).*

**Cədvəl 3. Qabıqlı püstə idxalının ölkələr üzrə bölgüsü**

| | **2017** | | **2018** | | **2019** | | **2020** | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** |
| İran | 213.1 | 691.1 | 13.6 | 65.6 | 55.2 | 404.8 | 68.1 | 495.5 |
| Türkiyə | 38.1 | 163.8 | 126.4 | 590.8 | 42.2 | 273.5 | 17.5 | 125.9 |
| Digər | 3.8 | 23.6 | 3.1 | 15.2 | 3.9 | 34.2 | - | - |
| **Cəmi idxal** | **255.0** | **878.5** | **143.0** | **671.6** | **101.3** | **712.5** | **85.6** | **621.4** |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

## 3. Qlobal istehsal, idxal və ixrac göstəriciləri

- FAO-nun məlumatına əsasən 2019-cu ildə dünya üzrə püstə istehsalı 2018-ci ilə nisbətən 9.6% azalaraq 911.8 min ton olub *(Qrafik 7).*

**Qrafik 7. Püstənin qlobal istehsal göstəriciləri, min ton**




***Mənbə: Faostat.org***

- 2019-cu ildə dünyada istehsal olunan püstənin 37.0%-i İran, 36.8%-i ABŞ, 11.6%-i Çin, 9.3%-i Türkiyə və 3.5%-i Suriyada olmaqla, 98.3%-i 5 ölkənin payına düşüb *(Qrafik 8).*

**Qrafik 8. Püstə istehsalının ölkələr üzrə qlobal istehsal göstəriciləri, min ton**




***Mənbə: Faostat.org***

- 2019-cu ildə qlobal bazarda püstə idxalı 3.4 milyard ABŞ dolları olub. Bunun 83.5%-i qabıqlı püstənin, 16.5%-i qabığı təmizlənmiş püstənin payına düşüb *(Qrafik 9).*

**Qrafik 9. Qlobal püstə idxalının həcmi, milyon ABŞ dolları**




***Mənbə: Trademap.org***

- Dünya üzrə cəmi püstə idxalında Çin (38.8%), Almaniya (13.0%), İtaliya (6.0%), Hindistan (5.1%) və İspaniya (4.3%) olmaqla ilk beşlikdədir.

- Dünya üzrə qabıqlı püstə ixracının 95%-dən çoxu ABŞ, İran, Çin, Almaniya, Belçika, BƏƏ, Hollandiya, Lüksemburq, İspaniya və Avstraliyanın payına düşüb. Qabığı təmizlənmiş püstə ixracının isə 90.0%-dən çoxu İran, ABŞ, Almaniya, Əfqanıstan, Suriya, İtaliya, BƏƏ, Vyetnam və Çinin payına düşüb *(Qrafik 10).*

**Qrafik 10. Qlobal bazarda püstə ixracının ölkələr üzrə bölgüsü**







***Mənbə: Trademap.org***

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**tərəfindən hazırlanıb**


## Əlaqə:

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan


AQRAR TƏDQİQATLAR MƏRKƏZİ